# RƏŞAD MƏCİD ŞEİRLƏRİNDƏ VƏTƏNİN MƏNƏVİ TARİXİ, VƏTƏNDAŞLIQ DUYĞULARI

Gültəkin ƏLIYEVA*

**Xülasə:** Məqalədə göstərilir ki, çağdaş poeziyanın tanınmış nümayəndələrindən olan Rəşad Məcidin şeirlərinin üslubunda nağılvari təhkiyə forması mühim yer tutur. Sadə struktur üzərində qurulan mətnlərdə orijinallıq, memarlıq prinsipi yaradıcı quruculuğa xidmət edir. Onun şeirlərinin böyük bir hissəsi vətənə, onun təbiətinə, yurd yerinin gözəlliklərinin tərənnümünə həsr olunub. Eyni zamanda vətənin atributları, şairin lirik qəhrəmanının vətənə və atributlarına sevgisi diqqətdə saxlanılır. Şeirlərdə seçilmiş obrazlar kontekstində lirik qəhrəmanın həyatı, maraqları göz önündə canlanır. Rəşad Məcidin şeirləri özünün varlığı, enerjisi, təsir gücü ilə sərbəst şeirin müstəqillik mərhələsində, poetik məkanında mühüm yer tutur. Onun sərbəst şeirləri həm forma həm də məzmun baxımından yeniləşir və görümlü olur.

***Açar söz:*** *çağdaş poeziya, vətən sevgisi, poetik məkan, atribut*

**From Azerbaijan Karabakh to Konya Karabakh: Holiness in the Context of Public Diplomacy**

**Abstract:** The article shows that in the style of Rashad Majid's poems, one of the well-known representatives of contemporary poetry, the form of fairy-tale incitement occupies an important place. In the texts based on a simple structure, the originality, architectural principle serves creative construction. A large part of his poems are dedicated to the homeland, its nature, glorifying the beauties of the homeland. At the same time, the attributes of the homeland, the poet's lyrical hero's love for the homeland and its attributes are kept in mind. In the context of the images selected in the poems, the life and interests of the lyrical hero come to life. Rashad Majid's poems occupy an important place in the independent stage of free poetry, in the poetic space, with its presence, energy, and influence. His free poems are updated and visible both in terms of form and content.

***Key Words:*** *contemporary poetry, love of country, poetic space, attribute.*

## Giriş

Azadlıq, müstəqillik duyğuları Azərbaycan sərbəst şeirinin də istiqamət və üslublarının genişlənməsinə səbəb olur. Bütövlükdə bu dövrüdə Azərbaycan poeziyasının həm fikir sərhədləri, həm də üslubi istiqamətləri genişlənmişdir. Əlbəttə, hər hansı bir şairin, yaxud yazıçının yaradıcılığını konkret olaraq hər hansı bir cərəyan və axınlara aid edilməsi hər zaman özünü doğrultmur. Tutaq ki, simvolist adlandırılan şairin yaradıcılığını simvolizmə gətirib çıxaran amillərin də rolu əsas olur. Belə ki, yaradıcılıq cərəyanda yox, hər hansı cərəyanlar yaradıcılıqda özünü ehtiva edir və təsdiqini tapır. Çünki sərbəst şeir bir formadır; onu bu cərəyanların hər birinə aid etmək də olar. Yəni bu cərəyanların hər biri sərbəst şeirdə də öz təsdiqini tapa bilər.

Müstəqillik dövrü Azərbaycan sərbəst şeiri yalnız mövzu və məzmun baxımından deyil, ritmik davranış və intonasiya baxımından da dəyişmiş və yenilənmişdir. Altmışıncı illərdən gələn poetik təcrübə və zənginləşməyə bu dövrdə dünya poeziyasına inteqrasiya prosesləri də qatılmış və ortaya yeni bir mərhələ çıxmışdır. Bu mərhələdə sərbəst şeir struktur baxımından dəyişmiş, yeni ritm və intonasiya ilə zənginləşmişdir. Rüstəm Behrudi, Etimad Başkeçid, Rəşad Məcid, Səlim Babullaoğlu, Zahir Əzəmət, Qəşəm Nəcəfzadə, Əjdər Ol və b. onlarla şairin yaradıcılığında sərbəst şeirin strukturu zəngin və çoxqatlı olmuşdur.

Bu illərdə poeziyanın mövqeyi yeni üslub və dil gəlişdirməsini şərtləndirirdi. Ritmika və intonasiya bu zaman şairin müraciət etdiyi "dil" komponentlərindən birinə çevrilir. R.Məcid şeirlərinin modifikasiyasında, yəni müxtəlif əlaqələrdən olan sintaktik əlaqələrində ritm və intonasiya başlıca yer tutur. Şair hər bir şeirinə ayrıca ritmik intonasiya tapır və buna uyğun mövzu seçimi onu sərbəstləşdirir. Bir çox şeirlərində şair bu əlaqələrə süjetlilik komponentini də əlavə edir ki, bu da şairin sərbəst şeirlərini fərqləndirən cəhətlərdən olur.

Çağdaş poeziyanın tanınmış nümayəndələrindən biri Rəşad Məcidin sərbəst şeirlərində fərqli bir istiqamət gözə çarpır. Onun şeirlərinin üslubunda nağılvari təhkiyə forması başlıca yer tutur. Sadə struktur üzərində qurulan poetik mətndə fikir qütbləri fəal və intensiv şəkildə

---

* filologiya üzrə fəlsəfə doktoru,dosent, Bakı Slavyan Universiteti,Azərbaycan ədəbiyyatı kafedrası, E-mail:gultekin392@mail.ru

DOI :10.30546/100981.2024.0127

görümlüləşir, yəni detallar üzərindən obrazlı əyaniləşməyə doğru gedir. Bu cür poetik təhkiyə texnikası sərbəst şeirin inşasında yeni yol açır. Şairin bədii dilindəki bu cür orijinal memarlıq prinsipi onun inşasında yaradıcı quruculuğa xidmət edir. Təsadüfi deyil ki, şair bu şeirləri müxtəlif adlar altında toplayır. Bu adlar içərisində "Dastan", "Roman" kimi şərti adlar bu şeirləri bir çətir altına toplayır. Çox zaman bu cür kiçik şeirlərdə verilən obrazlar kontekstində lirik qəhrəmanın bütöv həyatı göz önündə canlanır. "Eynək" şeirində bədii təhkiyənin nağılvariliyi estetik qavrayışı daha görümlü və detallı edir. "Qocalığın qaranquşu,//Gözümə işıq gətirənim" poetik girişi eynəyin obrazın həyatındakı sonrakı funksionallığı bədii stenoqram texnikasına əsaslanır. Şeirdə həyat həqiqətləri səbəst formanın imkanlarından maksimum yararlanmaqla ifadə olunmuşdur. *"Heç sevmədim amma səni-/Ömrümün ikinci/hissəsinin/gəldiyini/ xəbər verdiyindən,/kədər verdiyindən!"* informasiyası detalların sonrakı təsviri üçün önəmli rol oynayır:

*İlk dəfə sevdim-*
*oxumayanda da*
*çıxarmadım gözümdən-*
*Elə bil məni əzizləyirdin,*
*Göz yaşlarımı*
*gizləyirdin* (1, s. 110).

"Yastıq" şeirinin strukturu sadə bir detalın üzərində qurulur; yastığın insan həyatında oynadığı rolun ictimai tərəfləri göstərilir. Şair insan ömrünün stenoqramını bir yastıq obrazında bütövləşdirə bilmişdir. İnsan doğulan kimi başının altına yastıq qoyulur. Bu yastıq ilk olaraq həqiqi mənada işlənir. Sonra yastığın insan həyatındakı müxtəlif rolları gəlir. Uşaq oturanda da böyrünə, başına yastıq qoyurlar. Yeriyir, böyüyür, hər zaman yastıq onu müşaiyət edir. *"Başı üşüyəndə papağı yastıq,//Əli üşüuyəndə bayrağı yastıq,//Qəbri üşüyəndə torpağı yastıq".* Yatıb yuxuda ipək yastığının daşlaşdığını görən lirik mən ayağına dolaşan yastığı nə illah edirsə özündən uzaqlaşdırıb addımını ata bilmir. Beləliklə, insan həyatında bir yastıq oyunu başlayır ki, bu da dünyada gedən proseslərə bir işarədir:

*Addımını ha atır, ata bilmir,*
*Ayağını ha dartır, darta bilmir.*
*Yastıq çəkir onu quyutək,*
*Əli-qolu balacalaşır,*
*Boyu balacalaşır.*
*Diksinib ayıldı yuxudan* (2, s. 67).

Şairin burada verdiyi "yastıq formulu" ictimai məna kəsb edərək insanın yaşadığı ömrün məzmununa çevrilir; beləcə, hər bir insanın başının altına qoyulan yastıq gələcəkdə onun fəaliyyətsizliyinə, arxayınçılığın, ona verilən boş vədlərə səbəb olur. Deməliyəm ki, burada şair həm də sətiraltı mənada otuz ilə yaxındır ki, Qarabağ məsələsində Azərbaycana verilən boş vədləri nəzərdə tutmuşdur. Bu səstiraltı məna şeirin assosiativ məzmunundan doğur.

R.Məcidin şeirlərinin böyük bir hissəsi vətənə, onun yurd yerinin gözəlliklərinə həsr olunub. Bu şeirlərində vətənin poeziyasını yaratdığı kimi, poeziyanın da vətənini yarada bilmişdir. Onun şeirlərini sistemli şəkildə izləməli olsaq, vətənin mənəvi tarixini aşıq şəkildə görə bilərik. Ədəbiyyatşünas Yaşar Qasımbəyli şairin sərbəst şeirlərindəki vətən sevgisini yüksək qiymətləndirir: *"Şair vətənin mənəvi tarixini elə-belə, sözgəlişi vərəqləmir. Vətən tarixini və onun əsas atribitlarını təhlil edərək, vurğulayaraq çağdaş nəsillərə, öz yaşıdlarına sanki vətəndaşlıq gücü bəxş edir. Çünki lirik "mən"in qan yaddaşında bu söylədikləri canlıdır, dipdiridir"* (3, s. 95). Akademik İsa Həbibbəyli isə bu fikirdədir ki: *"Yaradıcılığının XXI əsr mərhələsində vəznindən və mövzusundan asılı olmayaraq, Rəşad Məcid bütün hallarda şeirlərində vətəndaşlıq duyğusunu özünəməxsus lirika ilə ifadə etməyi zəruri hesab edir"* (4, s. 56). Bu mənada vətənin bir çox atributları şairin lirik qəhrəmanı üçün canlı varlığa çevrilir. Lirik qəhrəmanı öz vətənini, onun ayrı-ayrı atributlarını dərin inamla sevir. "Bayrağım"

şeirində bu inam daha canlı görünür. Məlumdur ki, bu mövzuda həm yüz il əvvəl Cümhuriyyət dövründə, həm də çağdaş müstəqillik zamanında şairlər tərəfindən bir çox şeirlər yazılmışdır. R.Məcidin şeiri özünün enerjisi, təsir gücü ilə çağdaş sərbəst şeirin poetik məkanında özünəməxsus yer tutur. Uzun illər onu (bayrağı) ən çətin günlərində qoruyaraq beyninə həkk edən, mahnılarında, nağmələrində gizlədən lirik qəhrəman üç rənginə öyrəşdiyi bayarağı ən yüksəkdə tutur, onu sevir, küləkdən, tufandan qoruyaraq bu günə gətirir. Başı üstünə qaldırdığı bayrağı heç zaman əyməmək və beləcə də saxlamaq lirik qəhrəmanın ən böyük ideallarındandır:

*Sənə təşnəyəm, acam-*
*əlim-qolum yorulsa,*
*dişimlə saxlayacam.*
*Gücüm çatmaz*
*Daha nəsə tərpədə,*
*Kimsə əyə...*
*Dalğalan,*
*əs,*
*açıl yelkən kimi*
*gedək gələcəyə* (5, s. 66).

**NƏTİCƏ**

Sonda belə nəticəyə gəlirik ki, müstəqillik ərəfəsi və dövrü Azərbaycan sərbəst şeiri özünün yeni inkişaf mərhələsinə çatmışdır. Bu dövr sərbəst şeir poetikası əvvəlki mərhələlərdən bir çox cəhətdən fərqlənir. Poeziya bu dövrdə janr poetikası baxımından da dəyişir və yenilənir; poeziyada modernizm və postmodernizmin təzahürləri formalaşır. A.Mirseyid, K.Abdulla, R.Məcid, Ə.Ol, E.Başkeçid, D.Osmanlı, R.Qaraca, M.Köhnəqala, H.Herisçi, S.Babullaoğlu, Xanəmir, Q.Nəcəfzadə və b. yaradıcılığında sərbəst şeirin poetik ifadə vasitələri zənginləşmiş, ritm və intonasiyası dəyişmişdir.

**KAYNAKÇA**

1. Akimova, E. Düşüncə zamanı-ədəbi tənqid diskurs kimi -Bakı, Elm və təhsil, -2019. -600 s.
2. Rəşad, M. Bir də gəlməyəcək... -Bakı: -Təhsil, -2015. -512 s.
3. Alışanlı, Ş. Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi –Bakı: Elm, -2013. -404 s.
4. Alışanov, Ş. Sözün estetik yaddaşı -Bakı: Elm, -1994. -192 s.
5. Alışanlı, Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı -Bakı: Elm, -2011.-376 s.